# Söhrab Tahir poeziyasında döyüşən şeirlər

**Nəzrin Rzayeva**
*AMEA-nın Əlyazmalar İnstitutunun elmi işçisi*
**E-mail:** nazrinrzayeva88@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.e.d., prof. R.N. Əliyev

**Açar sözlər:** poeziya, mübarizlik, tarixi konteks, azadlıq
**Ключевые слова:** поэзия, воинственность, исторический контекст, свобода
**Key words:** poetry, struggle, historical context, freedom

Söhrab Tahir poeziyasının cənub mövzusunda Araz, Savalan, Təbriz kimi obrazları sırasında Ana obrazı da xüsusi yer tutur. Ş. Alışanlı öz mülahizələrində haqlıdır. Poeziyamızda Cənub mövzusunda bədii təhlillər kimi, bədii detallarda da bir təkrarlıq özünü göstərmişdir. İkimininci illərin ədəbi tənqidi də səksəninci illərin ədəbi tənqidi kimi cənub mövzusunda yeni istiqamətin olmadığı qənaətindədir. "Müasir poeziyada Təbrizlə bağlı yazılan şeirlər poetik yaddaşımıza yeni çalarlar artırmasa da, mövzunun göz önündə olması, mənalandırılması baxımından diqqətə layiqdir" (1, 206). Həm də bu obraz onun şeirlərinə yalnız öz şəxsi həyatında yaşadığı doğma anasından ayrı düşmüş bir övladın həsrəti olaraq yox, həm də bir mübarizlik əzminin simvolu kimi daxil olmuşdur.

O tayın, bu tayın qulağı səsdə,
Qulağım tutulub bu son nəfəsdə.
Qoyun tüfəngimi sünəmin üstə,
Ölsəm, tüfəngimi götürsün anam! (2, 83)

Söhrab Tahir poeziyasında azadlıq uğrunda oğlunun qanlı köynəyini bayraq edən və oğlunun cənazəsi üzərindən tüfəngi götürən ana surəti cənub mövzusunda ənənəvi obrazlar sırasına yeni bir obraz əlavə edir. Şairin bu mövzuda məhz ana obrazına müraciət etməsi həm də ananın nəsilləri milli istiqlal uğrunda mübarizə əhavali-ruhiyyəsində tərbiyə edib formalaşdırmaq işində oynaya biləcəyi əvəzsiz rolla bağlıdır. Nəsilləri döyüşkən əhvali-ruhiyyədə görmək istəyən Söhrab Tahir döyüşə atılan ana obrazını gətirir cənub mövzusuna.

Ancaq onu da qeyd edək ki, Söhrab Tahir poeziyasında bu mövzunun yeni istiqaməti, tarixi konteksti görünmür. Mövzunun tarixi konteksi analitik şərh müstəvisi istəyir və poeziyanın bu cür müstəvi imkanları digər janrlara nisbətən dardır. Həm də Söhrab Tahir bir şair kimi şerinin qarşısına bu problemi yaradan tarixi-siyasi amilləri araşdırmaq məqsədi də qoymur. Onun şeri bu problemin həllinə çalışır, onun həlli uğrunda sözün savaşını açır. Söhrab Tahir poeziyasında söz sanki şerin misralarında deyil, savaş meydanındadır. Onun yaradıcılığında sözün döyüşdüyü şeirlərdən biri də "Mən Azərbaycanam" şeridir.

Otuz altı milyin yumruq gücüylə
Endirirəm çəkicimi!
Vuraram zülmətin təpəsinə!
Zülmət qara rezin kimidir,
O da tab gətirə bilmir
Otuz altı milyonun ağır çəkic zərbəsinə! (2, 212)

Bu şerin misralarının da təsdiq etdiyi kimi Söhrab Tahir şerinin emosional hərarəti olduqca güclüdür. Elə bu hərarət də əslində mövzu-problemin bədii-analitik şərhinə mane olur. Onun poeziyasına bu hərarəti verən Söhrab Tahir qəlbinin azadlıq təşnəsidir. Onu da qeyd edək ki, bu emosional hərarət Söhrab Tahir poeziyasına poetik güc verir. Böyük rus estetiki Y. Borev yazır: "Emosionallıq - bədii obrazın tarixən ən qədim və estetik cəhətdən ən zəruri əsasıdır. Qədim hindlilər belə hesab edirdilər ki, incəsənət hansısa qeyri-adi bir şeyi ifadə etmək istəyindən, hislərin elə bir aşıb-daşmasından doğulur ki, onun qarşısını almaq mümkün deyildir" (3, 150).

Vətənimizin azadlığı, bütövlüyü uğrunda mübarizəni ilk vaxtlar döyüş meydanında aparan Söhrab Tahir xalq hərəkatının məğlubiyyətindən, cənubi Azərbaycanda qurulmuş Milli Hökumətin süqutundan sonra şeirlərini mübarizə meydanına çevirmişdi. "Söz sərrafı Söhrab Tahirin yaradıcılığının ilk mərhələsində Azərbaycanı Milli hökumətin tarixi, coşqun inkişaf dövrü, həmçinin məğlubiyyətə uğramış hərəkatın yeni dirçəliş cəhdləri tərənnüm edilirdisə, sonrakı mərhələdə artıq, tarixə çevrilmiş illərin xatirəsi və kül altında qalan, lakin közərən üsyankar, gizli əqidə mübarizəsinin gedişi işıqlandırılır (4, 6).

Söhrab Tahir poeziyasında da mövzunun ənənəvi obrazlarına: Araza, Təbrizə, Savalana, Səhəndə müraciətlər var. Bu obrazlar artıq ədəbiyyatımızda şimalın cənuba, cənubun şimala bitməyən həsrətinin simvoluna çevrilmişlər. Söhrab Tahir də öz həsrətini onlarla bölüşür.

Cənub mövzusunun ənənəvi bədii-poetik həllində ən əsas istiqamətlərdən biri də ağı intonasiyasıdır. Və bu intonasiya da, əsasən, yuxarıda göstərdiyimiz ənənəvi obrazlara müraciətdə özünü göstərir. Söhrab Tahirin poeziyasına da Araz, Təbriz, Savalan, Səhənd obrazları ağı intonasiyasının ladlarında gəlir. Şair onları həm dərdinə şərik qoşur, həm də sözün poetik gücü ilə onları oxşayır. Bu, əlbəttə, Söhrab Tahir şerinin dəst-xətti deyil, ümumiyyətlə, poeziyamızın bu mövzuda bədii mənalandırma tərzidir. Onun "Səhəndim" şerinin misralarında Səhənd dağına müraciəti Süleyman Rüstəmin "Təbrizim" şerində Təbrizə müraciətini xatırladır.

Gəldim tanış olum bir az yaxından,
Tanış bir xəyala daldı Səhəndim.
Dedim yorulmuşam,
Xəstələnmişəm,
Qolunu boynuma saldı Səhəndim (5, 218).

Süleyman Rüstəmin "Təbrizim" şerinin bədii intonasiyasında da oxşar məqamları müşahidə edirik.

Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!
Qoymaram yadları girsin qoynuna,
İzin ver qolumu salım boynuna!
Sənin bayramına, sənin toyuna
Dili bir, qanı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib (5, 7).

Hər iki şerin misraları da həsrətinə qovuşan lirik mənlə öz qoynunu vüsala açan məkanların səssiz, duyğudan, hisdən yoğrulmuş dialoqudur.

Söhrab Tahirin cənub mövzulu poeziyasında mövzu-problem müxtəlif ovqatlarda öz bədii həllini tapmışdır. Əsasən, döyüşkən, mübariz əhavali-ruhiyyə üzərində qurulan bu mövzu-

problemin bədii həllində Arazdan, Təbrizdən, Savalandan söz düşüncə lirik mən kövrək bir əhvali-ruhiyyəyə köklənir. Onun şerinin misraları bölünmüş vətənin həsrətini rəmziləşdirən bu obrazları oxşayır. Şairin "Təbrizim", "Ərdəbil", "Ərk qalası", "Savalan" kimi şeirlərində lirik mən Azərbaycanın tarixi yaddaşı olann bu yerlərə müraciət edincə həm kövrəlir, həm vüqarlanır, həm də nisgillənir. Xüsusən də, "Ərdəbil" şerinin misraları qarışıq duyğulardan tökülmüşdür. Şeir müəllifin vüqar, fəxarət hissləri ilə dolu misralarla başlayır.

Savalan altında bardaş quraraq
Çubuq tütülədir qoca Ərdəbil.
Tarixdən boylanıb mənə baxsa da,
Görünür tarixdən uca Ərdəbil (5, 61).

Ancaq sona çatınca şair öz nisgilini, həsrətini gizlədə bilmir, şerin misraları göz yaşları tökür.

Qıçımda qar qışın buz patavası,
Dolar ürəyimə qürbət havası,
Ağlayar vətənin Tahir yarası,
Gözümün bulağı sancar, Ərdəbil (5, 62).

Söhrab Tahirin cənub mövzulu poeziyasında özünün göstərən və onun əksəriyyət şeirlərinin içərisindən min doqquz yüz qırx altıncı ildə Milli hökumətin süqutundan doğan məğlubiyyət nisgili motivi keçir. Azadlıq uğrunda vuruşlarda ölməməyin yarası şairi göynədir. "Böş qalmış qəbir" şerində şairin bu göynərtisi bütün misralarda dil açır. Şair bir ölüm istəyir, elə bir ölüm ki onunla bir xalqı yaşatmaq olar. "Cavab versin tarix mənə" şerində də lirik mənin məğlubiyyət nisgili dilə gəlir. "Boş qalmış qəbir" şerindən fərqli olaraq burda şair problemin tarixi-siyasi konteksinə nəzər salmağa çalışır.

Qırx altıda vuruşmadım,
Qoymadılar...
Əlim bağlı, könlüm dağlı...
Dedilər ki, dünya təzə
Can qutarmış vuruşlardan, hələ dayan! (5, 14)

Bu misralarda şair məğlubiyyətin səbəbini beynəlxalq aləmin təzyiqləri ilə bağlayır. Ancaq Söhrab Tahir lirik məninin mayası mübariz, döyüşkən ovqata kökləndiyindən o, bu səbəb üzərində dayanmır, günahı özgəsində yox, özündə axtarır.

Qırx altıda vuruşmadım
İndi, indi vuruşuram!
Öz səhvimin cavabını
Heç kəsdən yox,
Mən özümdən soruşuram (5,14).

Söhrab Tahir poeziyası ədəbiyyatımızda cənub mövzusunun ənənəvi tərzində yaransa da, bu mövzunun aktuallaşması, oxucu düşüncəsinin problemə köklənməsi istiqamətində çox iş görmüşdür.

**Məqalənin aktuallığı.** Cənub mövzusu ədəbiyyatımızda ən çox müraciət olunan mövzulardandır. Ancaq bu mövzunun bədii həlli Söhrab Tahir yaradıcılığında öz dərin səmimiyyəti ilə seçilir. Bu da təsadüfi deyildir. Onu bu mövzuya ömür yolu gətirmişdir.

**Məqalənin elmi yeniliyi.** Mövzunun emosional məzmunu - vətənə məhəbbətin, məğlubiyyətdən doğan qəzəbin, düşmənə nifrət yalnız poeziyanın poetik müstəvisində öz ifadəsini dolğunluğu və zənginliyi ilə tapa bilərdi. Ona görə də Söhrab Tahirin qələmi daha çox bu janra, bu janrda isə cənub mövzusuna yönəlib.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, bakalavr və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Alışanlı Ş. Sözün estetik yaddaşı. Bakı: Elm, 1994.
2. Rüstəm S. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005.
3. Borev Y. Estetika. Bakı: Gənclik, 1980.
4. Bir tale, iki qismət // Mühacir, 2017, 22 may.
5. Tahir S. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005.

**Н. Рзаева**

## Борьба в поэзии стихи С. Тахира

## Резюме

В южной поэзии Сохраба Тахира в ряду таких образов как Араз, Савалан, Табриз, особое место занимает образ Матери. В теме южной поэзии и среди большинства его стихотворений проходит мотив поражение национального государство, вытыкаемое из событий 1946 года. Его живет рана бессмертии в этой борьбе, С. Тахира. Эго поэзии основывается на этом, ищет вику не в других а в себе.

**N. Rzayeva**

## Struggle in poetry from the time of S. Tahir

## Summary

İn the southern theme of the poetry of the poet Araz, Savalan, Tabriz, the image of the mother also occupies especial place. Through this motive, Tahir's defeat in the poetry of southern poetry and the defeat of the National Government in most of his poems in the year nineteen-forty-six year. The poet's poison is not to die in freedom for the sake of freedom. Söhrab Tahir is not worthy for this reason, because its fights for battle, fights and does not seek offense.

**Redaksiyaya daxil olub:** 27.04.2018